# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№039** **20 aprel 2022-ci il**

**İcra hakimiyyəti başçısının aparatında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, İH yanında olan orqanlarda və tabeliyində olan hüquqi şəxslərdə Dövlət informasiya sisteminin istismarı, informasiya-telekommunikasiya şəbəkəsindən istifadə və informasiyanın qorunması haqqında**

“Yerli İcra hakimiyyətləri haqqında Əsasnamənin 3.1.14-cü bəndinə uyğun olaraq, İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının 17 noyabr 2021-ci il tarixli 7/672-KK nömrəli məktubunu nəzərə alaraq İcra hakimiyyəti başçısının aparatında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, İH yanında olan orqanlarda və tabeliyində olan hüquqi şəxslərdə dövlət informasiya sisteminin istismarı, informasiya-telekommunikasiya şəbəkəsindən istifadə və informasiyanın qorunmasını, informasiya sızmasına qarşı informasiya təhlükəsizliyi təminatına diqqət və nəzarətin gücləndirilməsi məqsədi ilə

**Qərar alıram:**

1.Qobustan rayonu İcra hakimiyyətində “informasiya təhlükəsizliyinin təminatı üzrə Təlimatı” (bundan sonra Təlimat) təsdiq etsin.

2.Tapşırılsın Qobustan RİH-ni Başçısı Aparatının Sənədlərlə və Vətəndaşların müraciətləri ilə iş şöbəsinə İcra hakimiyyəti başçısı aparatında, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində, İH yanında olan orqanlarda və tabeliyində olan hüquqi şəxslərdə işləyən əməkdaşlara çatdırılmasını təmin etsin.

3.Tapşırılsın İcra hakimiyyəti başçısı aparatında, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində, İH yanında olan orqanlarda və tabeliyində olan hüquqi şəxslərdə çalışan əməkdaşlara Təlimatın tələblərini yerinə yetirsinlər.

4.Tapşırılsın İcra hakimiyyətinin başçısı aparatının nzibati ərazi dairəsi üzrə nümayəndəliklərində, İH yanında olan orqanlarda və tabeliyində olan hüquqi şəxslərdə olan bütün simsiz informasiya ötürücüləri və periferiyaların istifadə təyinatı müəyyənləşdirilməklə 2 ay ərzində qeydiyyata alınmasını təmin etsinlər, xidməti fəaliyyətlə bağlı istifadəsi zəruri olmayan avadanlıqlar ləğv edilsin.

- Şəxsi informasiya daşıyıcılarının xidməti avadanlıqlarda istifadəsinə yol verilməsi məhdudlaşdırılsın.

- Aidiyyatı təşkilatlar təşkilat daxilində mütamadi yoxlamalar apararaq Təlimatın və bütünlükdə informasiya təhlükəsizliyi tələblərinin yerinə yetirilmə səviyyəsinin yoxlanması, aşkar edilmiş pozuntuların sənədləşdirilməsi, aradan qaldırılması və təkrar törədilməsinn qarşısının alınması üçün profilaktik tədbirlər görsünlər.

5. Sərəncamın İcrasına nəzarəti başçının müavini-Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdirinə tapşırılsın.

**Qobustan rayonu İcra**
**hakimiyyətinin başçısı:** **A.M.Məmmədov**